**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/3** **21 fevral 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasına**
**Fəxri üzv qəbul edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 nömrəli "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə" qərarına uyğun olaraq, Palata tərəfindən keçirilən tədbirlərdə müntəzəm iştirakını, Azərbaycan auditinin inkişafına yönəlik dəyərli təklif və tövsiyələrini, habelə Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olduğunu nəzərə alaraq, Rusiya Federasiyası "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə heyətinin sədri Kozırev İqor Aleksandroviç barədə Auditorlar Palatasının icraçı direktoru (S.Gülməmmədov) tərəfindən hazırlanmış məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan Rusiya Federasiyası "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə heyətinin sədri Kozırev İqor Aleksandroviçə Auditorlar Palatasının Fəxri üzvü statusu verilsin.
2. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki, on gün müddətində Fəxri üzv statusu verilmiş Kozırev İqor Aleksandroviçə Palata Şurasının qərarı barədə məlumat göndərilsin.
3. Auditorlar Palatasının Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, on gün müddətində bu qərarın 1-ci bəndi ilə əlaqədar təşkilati işləri həyata keçirsin.
4. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki, on gün müddətində bu qərarın mətni və Fəxri üzv barədə informasiyanın azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**